https://doi.org/10.59849/3006-2403.2025.1.95

*Əlimuxtar MUXTAROV*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Gəncə Bölməsi*
*E-mail: nizamicenter1141@gmail.com*

# AZƏRBAYCAN NİZAMİŞÜNASLIĞININ İNKİŞAFINDA XƏLİL YUSİFLİNİN XİDMƏTLƏRİ

*Açar sözlər:* Nizami Gəncəvi, Xəlil Yusifli, nizamişünaslıq, inkişaf

Əməkdar Elm xadimi, filologiya elmləri doktoru, professor, “Şöhrət” ordenli Xəlil Yusiflinin adı Azərbaycan Respublikasında tələbə adını qazanaraq ali məktəblərin filologiya fakültəsinə daxil olan hər bir Azərbaycan gəncinin yaddaşında silinməz izlər buraxdığı kimi, Azərbaycan humanitar elminin, xüsusən Azərbaycan ədəbiyyatının qədim və orta əsrlər dövrünün, dahi Azərbaycan şairi Nizami Gəncəvinin tədqiqi ilə məşğul olan bir çox alimin də istinad etdiyi, bəhrələndiyi böyük alimlərdən biridir. Xəlil Yusifli Azərbaycan ədəbi-mədəni mühitinə bütün ruhu, varlığı ilə bağlanan və ona şərəflə xidmət edən bir insan idi. O, zəngin zəkası, məntiqi mühakimə qabiliyyəti ilə elm aləminə gəldiyi ilk anlardan müəllimləri olmuş akademik Həmid Araslı, professorlar Mir Cəlal Paşayev, Mirzağa Quluzadə və başqa onlarla alimin nəzər-diqqətini cəlb etmişdi. Məhz belə korifeylərin, klassiklərin ətrafında yetişən Xəlil Yusiflidən auditoriyada ölkəmizin gəncləri təkcə elmin sirlərini deyil, həm də xeyirxahlığı, prinsipiallığı, düzlüyü, saflığı öyrənmişlər. Elmi yaradıcılığının əsas tədqiqat obyekti dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi olan Xəlil müəllim apardığı sanballı tədqiqatlara görə də dövrünün ən nüfuzlu nizamişünas alimlərdən biri idi. Sistemli tədqiqat işinə “Nizaminin lirikası” (1967) ilə başlayıb “Şərqdə intibah və Nizami Gəncəvi” (1987) mövzusunda doktorluq müdafiə edən Xəlil Yusiflinin araşdırmalarında Nizami Gəncəvi yaradıcılığının elə bir sahəsi yoxdur ki, bu və ya digər şəkildə ondan bəhs edilməsin. Məhz bunun nəticəsidir ki, Gəncə deyiləndə Nizami Gəncəvi xatırlandığı kimi, Xəlil Yusifli deyəndə də Nizami Gəncəvini xatırlamamaq mümkün deyil. Xüsusilə həm yazdığı monoqrafiyalarda, həm də iştirak etdiyi yerli və beynəlxalq konfranslarda dahi şairimizin milli mənsubiyyəti ilə bağlı söylədiyi elmi və əsaslandırılmış dəlilləri, əlbəttə ki, nizamişünaslıq sahəsində gördüyü işlərin hələ bir qismidir. Qeyd etdiyimiz məsələ ilə bağlı sadəcə bir fakta müraciət etmək istəyirəm. Alim 2013-cü ildə “Ədəbiyyat qəzeti”ndə dərc edilmiş “Nizaminin etnik mənsubiyyəti: həqiqət və uydurmalar” məqaləsində yazırdı: “Nizaminin etnik mənsubluğu onun əsərlərindən gün kimi aydındır. Özünü dünyanın və bütün insanlığın şairi hesab edən bu dahi insan, fövqəlalim sənətkar yeri düşdükcə hansı etnosa mənsub olduğunu bildirməkdən də çəkinmir. Onun Azərbaycan türkcəsində yazılmış əsərləri gəlib bizə çatmasa da, biz bu qənaətdəyik ki, bu bənzərsiz şair doğma türkcədə də əsərlər yazmışdır. Onun əsasən farsca yazması dövrün, zamanın tələbi idi. Sarayların tələbi idi. Nizaminin türklüyünü danan, onun bir fars olduğunu iddia edənlərin yanlış, xəstə müddəalarını rədd edir və belə düşünürük ki, uydurma üsullarla Nizaminin türklüyü haqqındakı həqiqəti danmaq mümkünsüzdür” [6].

Qayğıkeş alimin Azərbaycan nizamişünaslığının inkişafındakı xidmətləri birmənalı olaraq misilsizdir. Bu mənada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin latın qrafikalı nəşrlərlə bağlı 2004-cü ildə imzaladığı Sərəncamda Nizami Gəncəvinin yeddi kitabının nəşrə hazırlanmasının Xəlil Yusifliyə həvalə edilməsi bunun bariz nümunəsi idi.

Xəlil Həmid oğlu Yusifli 1935-ci ildə Qazax rayonunun Aslanbəyli (keçmiş Əlibayramlı kəndi) kəndində kəndli ailəsində anadan olub. Atası Həmid Ömər oğlu Yusifov

1943-cü ildə İkinci Dünya müharibəsində xəbərsiz itkin düşmüş, o, qardaşı Ömər və bacısı Mələklə birlikdə anası Tükəzban Həsən qızının himayəsində böyümüşdü.

1945-1955-ci illərdə Aslanbəyli kənd orta məktəbində oxuyub təhsil alıb, 1955-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olub və 1960-cı ildə həmin universiteti bitirib.

1961-ci ildən Nizami adına Ədəbiyyat və Dil İnstitutunda laborant kimi əmək fəaliyyətinə başlayır. 1962-1965-ci illərdə həmin institutun "Qədim və orta əsrlər ədəbiyyatı şöbəsi"nin aspirantı olur, sonra həmin institutun "Qədim və orta əsrlər ədəbiyyatı şöbəsi"ndə əmək fəaliyyətini davam etdirir. 1967-ci ildə "Nizaminin lirikası" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək elmlər namizədi elmi dərəcəsi alır. 1969-cu ildə müsabiqə yolu ilə Kirovabad Dövlət Pedaqoji İnstitutunda (İndiki Gəncə Dövlət Universiteti) baş müəllim vəzifəsini tutur. 1987-ci ildə "Nizami Gəncəvi və Şərq İntibahı" mövzusunda doktorluq dissertasiyası müdafiə edib və 1989-cu ildə professor elmi adı alıb.

Xəlil Yusiflinin özünün də qeyd etdiyi kimi, elmi yaradıcılığının ən məhsuldar dövrü 2012-ci ildən AMEA-nın Gəncə Bölməsinin nəzdində yaradılan Nizami Gəncəvi Mərkəzinin rəhbəri olduğu dövrdən başlanıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin qeyd edilməsi ilə bağlı imzaladığı Sərəncamın tələblərindən irəli gələn tədbirlər çərçivəsində Nizami Gəncəvi ilə bağlı tədqiqatların daha da intensivləşdirilməsi məqsədilə fəaliyyətə başlayan mərkəzlərdən biri də AMEA Gəncə Bölməsi nəzdində Nizami Gəncəvi Mərkəzi oldu. Və əlbəttə ki, Mərkəz sözün əsl mənasında Nizami Gəncəvi irsi ilə bütövləşən bir alimə həvalə edilməli idi. AMEA Gəncə Bölməsinin sədri akademik Fuad Əliyevin təşəbbüsü və məsləhəti ilə Xəlil Yusifli Nizami Gəncəvi Mərkəzinin direktoru təyin edilir. Bütün bunlarla yanaşı, bütün dövrlərdə professor Xəlil Yusiflinin fəaliyyəti Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmiş, məxsusi olaraq AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin daim diqqət mərkəzində olmuşdur. Xəlil müəllimin rəhbərliyi altında Mərkəzdə Nizami Gəncəvi ilə bağlı müxtəlif istiqamətli tədqiqatlar aparılmışdır. Mərkəzdəki fəaliyyəti dövründə "Nizami Gəncəvi: Sələflər, Xələflər", "Renessans və Nizami Gəncəvi" (rus dilində) və başqa monoqrafiyaları nəşr edilmiş, "Nizamişünaslıq" jurnalı nəşrə başlamışdır.

Məlumatlardan da göründüyü kimi, Xəlil Yusifli əmək fəaliyyətinə Bakı şəhərində başlasa da, ömrünün çox hissəsini Gəncə ilə bağladı, akademik Rafael Hüseynovun təbirincə desək, Gəncə elm mühitinə sanbal qazandıran alim oldu [2, 12]. Bəlkə də, onu Gəncəyə gətirən elə Nizami Gəncəvi ruhu, Nizami Gəncəvi eşqi idi. Bütün hallarda, əlbəttə ki, qazanan Gəncə elmi-ictimaiyyəti, Gəncə elmi mühiti oldu. Çünki Xəlil müəllim kimi elm fədaisinin müasiri olmaq, onunla eyni şəhərdə yaşamaq şəhər alimlərinin timsalında birmənalı olaraq elmin astanasında olmaq demək idi.

Ömrü boyu Nizami Gəncəvinin həyat və yaradıcılığının tədqiqi ilə məşğul olan, bu sahədə 10-a yaxın kitabın ("Nizaminin lirikası", "Şərqdə İntibah və Nizami Gəncəvi", "Nizami Gəncəvi: Sələflər və Xələflər" və s.) və 200-ə yaxın elmi məqalənin müəllifi Xəlil Yusifli, bütövlükdə Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının əsas tədqiqatçılarından biri idi. O, "Məhsəti Gəncəvi" (Bakı, Yazıçı, 1984.) adlı monoqrafiyanın, "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı" (Ə.Səfərli ilə 1982, 1998, 2004) və "Dünya ədəbiyyatı tarixi (Antik dövr) (Bakı, Azərnəşr, 1999) dərsliklərinin müəllifidir.

Alim klassik ədəbiyyatın bir çox nümunələrinin tərcüməsi və tərtibi sahəsində də xeyli işlər görüb. M.Əvhədinin "Cəmşidin camı" (Q.Beqdeli ilə, Bakı, Azərnəşr, 1970; Tehran, 1986; Bakı, 2004), Arif Ərdəbilinin "Fərhadnamə" (Bakı, 2007), Məhsətinin "Rübailər", Nizami Gəncəvinin "Sirlər xəzinəsi" (Gəncə, 2008), "Xosrov və Şirin" (Bakı, Adiloğlu,

2011) və bir sıra başqa nəşrlər də bu qəbildəndir. Tərcümələrin bir qismi "Hikmət xəzinəsi" adlı müntəxəbatda (Bakı, 1992) və başqa kitablarda, bir qismi isə ayrıca kitablar şəklində nəşr olunub. Bunlardan əlavə, "Avey, hey" (Gəncə, 2005) və "Hanı o günlər, hanı?" (Bakı, 2007) adlı şeirlər kitabları nəşr olunub. Bu kitablarda olan şeirlər daha çox əruz vəznində yazılıb.

Yusifli Xəlil Həmid oğlu ilk dəfə Həqirinin "Leyli və Məcnun" poemasını tərtib edərək geniş ön sözlə nəşr etdirib. O, 2007-ci ildə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun dəstəyi ilə ön söz və çevirmələrlə birlikdə hər biri 400 səhifə həcmində olan daha yeddi kitab tərtib edərək nəşr etdirib. Qazi Bürhanəddinin, Molla Vəli Vidadinin, Molla Pənah Vaqifin , Seyyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Qasım bəy Zakirin, Məhəmməd Hadinin əsərlərindən ibarət olan bu kitablar alimin elmi fəaliyyətinin genişliyindən xəbər verir.

Professor Xəlil Yusifli 1998-ci ildə Bakı Dövlət Universitetində nəşr edilən "Dil və ədəbiyyat" jurnalının 2-ci nömrəsində "Şeyx Nizaminin oğlu Məhəmmədin şairliyi və bir beyti" məqaləsində yazırdı: "Hələ otuz il bundan öncə, Bakıda işlədiyim vaxtlarda Tehran Universitetinin Mərkəzi Kitabxanasının kataloqlarını gözdən keçirdiyim zaman maraqlı bir qeydə rast gəlmişdim. Həmin kitabxanada saxlanılan bir cüngdə başqa şairlərlə yanaşı, Nizaminin oğlu Məhəmmədin də şeiri olduğu göstərilirdi. İran alimi Daneş Pejuh Tehran Universiteti Mərkəzi Kitabxanasının əlyazma kitablarının kataloqunun XIV cildində aydın şəkildə yazırdı ki, həmin kitabxananın əlyazmaları şöbəsində saxlanılan 4715 saylı cüngdə Ənvəri, Əmir Xosrov Dəhləvi, Əssar Təbrizi, Əbdürrəhman Cami, Sədi və b. şairlərin şeirləri ilə yanaşı Nizaminin oğlu Məhəmmədin də şeiri qorunmaqdadır. Düz otuz il bu cüngü görmək, bu qeydin nə dərəcədə doğru olduğunu müəyyənləşdirmək arzusunda olmuşam. Mən elə düşünmürəm ki, bu qeyri-adi bir hadisədi. Ancaq Nizami kimi bir dühanın tərcümeyi-halı, onun övladı Məhəmmədin həyatı ilə bağlı bir dəlil kimi, məncə, qiymətlidir" [7].

"Nəhayət, 1998-ci ilin fevral ayında həmin cüngü görə bildim. İranın Azərbaycandakı səfiri Ə.Beqdeli İrana getmək üçün viza almaqda mənə kömək etdi. Bu iş üçün ona təşəkkürümü bildirirəm. Dostum Ə.Səfərlinin İranda səfir olmağını, həmin vaxt İranda bir kitabımızın çıxdığını da nəzərə alıb İrana yola düşdüm. Yeddi gün Tehranda qaldım. Elə ilk gün Tehran Universitetinə yollandım. Təəssüf ki, həmin gün və səhərisi İranda iş günü deyilmiş. İki gün gözləyəndən sonra universitetə getdim. Kitabxananın əlyazmaları şöbəsində bildirdilər ki, əlyazmaları şöbəsinə baxan şəxs gəlməmişdir. Səhərisi gün yenə iş günü deyildi. İmam Sadiqin ölüm günü ilə bağlı, çox yer, o cümlədən Tehran Universiteti işləmirdi. Mən ancaq Tehranda olduğum beşinci gün istədiyim əlyazmanı görə bildim. Əlyazmaları şöbəsinin əməkdaşları məni gülərüzlə qarşıladılar və istədiyim əlayzmasını tezliklə mənə gətirdilər. Bu işdə mənə ehtiramla qulluq edən əlyazmaları şöbəsinin əməkdaşlarına öz dərin minnətdarlığımı bildirirəm"!

Xəlil müəllimin əldə etdiyi Məhəmmədin şeiri bu misralardan ibarət idi:

Pəs əz omri şəbi baline xod an aşeyan didəm,
Məne-meskin beomre-xiş asayeş həman didəm.

Tərcüməsi:

Ömür keçdi, gecə balıncımı mən o məkan gördüm,
Yazıq mən ömrüm ərzində rahatlıq o zaman gördüm [7].

Əməkdar Elm xadimi, professor Xəlil Yusiflinin elmi irsindən gətirdiyimiz bu nümunədə məqsəd, əlbəttə ki, görkəmli alimin Nizami Gəncəvi yaradıcılığına vurğunluğunu göstərməklə yanaşı, eyni zamanda örnək, nümunəvi bir alim ömrünün sözlə çəkilmiş portretini təqdim etmək istədik.

Düz 30 il bu qədər istək və həyəcanla gözləmək! Bu hadisə Xəlil müəllimin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi şəxsiyyətinə, irsinə, şəcərəsinə olan məhəbbətinin sadəcə bir anıdır. Hətta deyərdim ki, bizim görə və oxuya bildiyimiz bir an! Ancaq Xəlil müəllimin Nizami Gəncəviyə olan və bizlərin görə, duya bilmədiyi sevgi isə

ölçüyə gəlməz miqdarda çox idi! Onun Nizami Gəncəvi ilə ruhi bağlantılarını isə ancaq o özü bilirdi və yaşayırdı.

Professor Xəlil Yusiflinin Nizami Gəncəvi tədqiqatlarının, araşdırmalarının sadəcə kiçik bir məqamını, damlasını özündə əks etdirən bu hadisə özlüyündə bir tədqiqatçının həm sağlığında, həm də özündən sonra gələn nəsillər üçün müəyyənləşdirdiyi bir proqram, yol xəritəsidir. Bu yol xəritəsi, eyni zamanda, səmimi əziyyəti, əzablı, keşməkeşli yolları, istiqamətləri göstərsə də, bu işin müsbət nəticəsini, meyvəsini də göstərən bir fəaliyyətdir. Bu istiqamət hər bir insanı potensial imkanlarından istifadə etməyə çağırır. Bu məqamda dahi Nizami Gəncəvinin "Yeddi gözəl" poemasında səsləndirdiyi və Xəlil müəllimin də tez-tez ifadə etdiyi bir beyti xatırlamaq yerinə düşərdi:

Çox iti zehinlər yatan oldular,
Axırda saxsı qab satan oldular [5, 37].

Professor Xəlil Yusifli hər zaman gəncləri çalışqanlıq ruhunda olmağa, həvəslə, ardıcıl, davamlı elmi fəaliyyətlə məşğul olmağa çağıraraq yenə də Nizami Gəncəvinin sözləri ilə bizlərə yüksək elmi istiqamət verir və deyirdi ki, Nizami Gəncəvi yazır ki, elə bir gün olmayıbdır ki, yeni bir şey öyrənmədən başımı yastığa qoyum. Və bu örnəklərlə o, bizləri gerçək elmə, zəhmətə çağırırdı.

Professor Xəlil Yusifli bir Nizami aşiqi idi. Xatirimdədir. 15-18 iyul 2022-ci il tarixlərində AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə keçirilmiş "Azərbaycan-Pakistan elmi-ədəbi əlaqələri" mövzulu konfransda iştirak etmək üçün Bakı şəhərinə gələn Pakistan İslam Respublikasının Lahor Dövlət Kollec Universitetinin alimləri - həmin universitetin Urdu dili kafedrasının müdiri, professor Saima İram, kafedranın dosenti Almaz Xanum, Ərəbşünaslıq və İslamşünaslıq kafedrasının müdiri, Dr. Hafiz Məhəmməd Nayem, Fars dili kafedrasının dosenti, Dr. Babar Naseem Assi, Urdu dili kafedrasının dəvət olunmuş məruzəçisi Məhəmməd Hammad Niyazi və başqaları AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin təşəbbüsü ilə 17 iyul 2022-ci ildə Gəncə şəhərinə - Nizami Gəncəvi məqbərəsinə səfərə gəldilər. Əlbəttə ki, buradakı məqsəd həm dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin məqbərəsini ziyarət edib onun bu torpağın yetirməsi olduğunu əyani olaraq göstərmək, həm də qardaş dövlətin alimlərinə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni, onun tarixini, ədəbiyyatını, tarixi abidələrini, mühitini, 44 günlük Vətən müharibəsində düşmənin xain təxribatları nəticəsində şəhərin və şəhər əhalisinin məruz qaldığı qırğınları, dağıntıları göstərməklə, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun və mərd xalqımızın əldə etdiyi tarixi qələbəni qonaqlara çatdırmaq idi. Həmin gün Xəlil müəllim ilə birlikdə gün boyunca qonaqlarla birlikdə olduq. Baxmayaraq ki, həmin ərəfələrdə havalar olduqca isti idi, eyni zamanda Xəlil müəllimin səhhətində bəzi narahatlıqlar var idi, ancaq o, bu qarşılamada, qonaqlara tarixi mənbələrə əsaslanmaqla sevgi ilə, həvəslə məlumat verdi və onlarla birlikdə oldu. Bu hadisə də öz növbəsində biz gənclər üçün Vətənimizə, klassik irsimizə, milli mənəvi dəyərlərimizə olan məhəbbətin bir örnəyi idi [4].

Xəlil müəllim öz nadir hafizəsi və qədim əlyazmalara olan vaqifliyi ilə dünyanın hər yerində Nizami Gəncəvinin milli mənsubiyyətini, Azərbaycan mütəfəkkiri olmasına kölgə salmağa çalışanlara qarşı mübarizə apararaq Nizami Gəncəvini qoruduğu kimi, Nizami Gəncəvinin ruhu da daim onu qoruyar və hifz edərdi. Bir gün birlikdə olduğumuz günlərin birində maraqlı bir söhbət etdi: "1968-ci ildə yazdığım "Nizaminin lirikası" kitabında yazmışam ki, Nizami özü deyir ki, biz türkük, biz Əfrasiyab nəsliyik. Nizami Gəncəvi hər zaman türklüyü uğrunda, bu ərazinin qədim türk ərazisi olması uğrunda mübarizə aparıb. Nizami deyirdi ki, biz Türk Midiyanın davamıyıq. Ərəb coğrafiyaçıları yazır ki, Qafqaz

dağları Bərdənindir. Yəni bütün bu dağlararası Alban dövləti, Türk dövləti olub. Nizami də məhz bunları əsərlərində əks etdirib" [5, 39].

Və mən soruşdum ki, Xəlil müəllim, sovetlər dönəmində bunları demək mümkün idi?! Cavab verdi ki, mümkün deyildi, sadəcə mən hər zaman hiss etmişəm ki, Nizaminin ruhu məni çox böyük bəlalardan hifz edibdir.

Professor Xəlil Yusiflini ömrünün son dövrlərində ən çox fərəhləndirən, sevindirən hadisələrdən biri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci ili "Nizami Gəncəvi İli" elan etməsi ilə bağlı imzaladığı Sərəncam oldu. Hədsiz dərəcədə sevinirdi bu hadisəyə. 24 dekabr 2021-ci ildə "Qızıl qələm" laureatlı jurnalist Vaqif Tanrıverdiyevə "Respublika" qəzetində verdiyi "Nizami Gəncəvi İli" dahi şairin ölməz irsinə yaradıcı münasibətdə yeni mərhələdir" başlıqlı müsahibəsində deyirdi: "Nizami Gəncəvi yaradıcılığına xüsusi diqqətin, dahi şairin ölməz ədəbi irsinə qayğının təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. O, hakimiyyətə gəldiyi ilk günlərdən bütün ədəbi tədbirlərdə, ədəbiyyat, incəsənətlə bağlı bütün mərasim və yubileylərdə Nizami Gəncəvini təkcə Şərqin deyil, dünya ədəbiyyatının görkəmli nümayəndəsi kimi dəyərləndirmiş, dahi şairin yaradıcılığına xüsusi qiymət vermişdir. Nizami Gəncəvinin Gəncə şəhərindəki möhtəşəm məqbərəsi də Ulu Öndərin Nizami irsinə ehtiramının ifadəsidir. 1978-ci ildə məqbərənin tikilməsi haqqında qərara əsasən, abidə sadəcə beton karkasdan düzəldildi. Lakin 1990-cı ildə Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü olarkən imkanlarından istifadə edərək hazırkı məqbərənin ucalmasına nail oldu. Əsl sənət nümunəsi olan məqbərənin yenidən qurulması böyük əziyyətlər hesabına başa gəldi. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Nizami Gəncəvi 840 illiyinin qeyd olunması haqqında Sərəncamı İttifaq miqyasında birmənalı qarşılanmadı. O vaxt SSR MK-nın katibi, Siyasi Büronun üzvü Mixail Suslov bu qərara etiraz etdi. Heydər Əliyev qətiyyətlə bildirdi ki, Nizami Gəncəvi elə dahi sənətkarlardandır ki, onun yubileyini hər il keçirmək lazımdır. Siyasi Büro da Heydər Əliyevin təklifini dəstəklədi. Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı Nizami Gəncəvi irsinə ehtiramın təcəssümü və müstəqillik dövrü Azərbaycan nizamişünaslığının inkişafına yönəlmiş qiymətli bir tarixi sənəddir" [8].

Filologiya elmləri doktoru, professor Xəlil Yusiflinin həm nizamişünaslıq fəaliyyəti, həm də Azərbaycan ədəbiyyatının, təhsilinin inkişafındakı xidmətləri müxtəlif dövrlərdə dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nizami Gəncəvi irsinin tədqiqi və tədrisində uzunmüddətli səmərəli fəaliyyətinə görə Xəlil Həmid oğlu Yusiflini 2009-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görüb, 2015-ci ildə isə "Şöhrət" ordeni ilə təltif edib.

Professor Xəlil Yusifli iki əsrin - XX və XXI əsrin Azərbaycan və dünya nizamişünaslarının tanınmış isimlərindən biri idi. Onun adına, yaradıcılığına, elmi irsinə Avropa, Asiya eləcə də Amerika qitəsində Şərq fəlsəfəsi ilə, ədəbiyyatı ilə məşğul olan görkəmli elm adamları, ictimai-siyasi xadimlər hər zaman yüksək dəyər vermiş və böyük hörmətlə xatırlamışlar. Xüsusilə vurğulamaq lazımdır ki, dahi mütəfəkkirin 870 illik yubileyi ərəfəsində professor Xəlil Yusiflinin təkcə nizamişünas alim deyil, eyni zamanda klassik ədəbi irsimizin görkəmli tədqiqatçısı kimi fəaliyyəti yalnız Azərbaycanlı alimlərin deyil, həm də xarici ölkələrin görkəmli alimləri və dövlət adamları tərəfindən də yüksək qiymətləndirilmişdir.

Azərbaycanlı alimlərdən: Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli: "Professor Xəlil Yusifli Azərbaycan nizamişünaslarının və klassik ədəbiyyatımızın tədqiqatçılarının bir neçə nəslini formalaşdıran alim idi" [1, 6].

AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev: “Professor Xəlil Yusifli o nizamişünas alimlərdən idi ki, onun tədqiqatları, əsərləri Nizami Gəncəvinin ən qədim əlyazmalarına əsaslanırdı, onların əsasında qururdu işlərini”.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov: “İki qat, üç qat əziz Xəlil müəllim varlığı ilə Gəncənin elm mühitinə sanbal gətirən qiymətli bir alim idi”.

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli: “Professor Xəlil Yusifli klassik ədəbiyyatşünaslığımızın korifeylərindən idi” [3,17].

Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, “Şöhrət” ordenli Xəlil Həmid oğlu Yusifli 15 sentyabr 2022-ci ildə Gəncə şəhərində vəfat etmiş və öz vəsiyyətinə uyğun olaraq doğma diyarı Qazax rayonunun Aslanbəyli kəndində dəfn edilmişdir.

Gəncə şəhər İcra Hakimiyyətinin və AMEA Gəncə Bölməsinin birgə təşkilatçılıqları ilə Gəncə Bölməsinin qarşısında şəhər ziyalılarının, sakinlərinin iştirakı ilə professor Xəlil Yusifli ilə izdihamlı vida mərasimi təşkil edilmişdir.

Ruhunuz daim şad olsun, əziz, unudulmaz Xəlil müəllimimiz!

## ƏDƏBİYYAT


1. Həbibbəyli İ. “Azərbaycan klassik ədəbiyyatının görkəmli tədqiqatçısı professor Xəlil Yusiflinin xidmətləri və müasir dövr”, “X.Yusifli biblioqrafiya” Ön söz, Bakı, “Elm və Təhsil”, 2025.
2. Hüseynov R. “İki qat, üç qat əziz”, “X.Yusifli Bibblioqrafiya”, Ön söz, “Elm və Təhsil”, 2025
3. Kərimli T. “Klassik ədəbiyyatşünaslığımızın korifeyi”, “525-ci qəzet”, 17 iyul 2020
4. Muxtarov Ə. “Pakistanlı alimlər Nizami Gəncəvinin mənəvi hüzurunda”, “525-ci qəzet”, 19 iyun 2022
5. Muxtarov Ə. “Nəsillərin bəhrələndiyi ümman-Xəlil Yusifli”, “X.Yusifli biblioqrafiya”, Ön söz, Bakı, “Elm və Təhsil” 2025
6. Yusifli X. “Nizaminin etnik mənsubiyyəti: həqiqət və uydurmalar” “Ədəbiyyat” qəzeti, 22 sentyabr 2012
7. Yusifli X. “Şeyx Nizaminin oğlu Məhəmmədin şairliyi və bir beyti”, “Dil və ədəbiyyat jurnalı”, BDU nəşri, Bakı,1998.N-2. (20)
8. Yusifli X. “ “Nizami Gəncəvi İli” dahi şairin ölməz irsinə yaradıcı münasibətdə yeni mərhələdir”, “Respublika” qəzeti, 24 dekabr 2021



***Алимухтар МУХТАРОВ***
***Доктор философии по филологии, доцент***


## ЗАСЛУГИ ХАЛИЛА ЮСИФЛИ В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОГО НИЗАМИВЕДЕНИЯ

***РЕЗЮМЕ***

*Ключевые слова:* Низами Гянджеви, Халил Юсифли, низамиведение, развитие

Наука низамиведения в Азербайджане имеет свои этапы развития. Если сравнивать ее с мировым низамиведением, как отметил академик Иса Габиббейли, то проделанная в Азербайджане работа является тяжелой чашей весов. Азербайджанские ученые внесли большой вклад в развитие этой области, которая в научном плане насчитывает более века.

Одним из выдающихся ученых, внесших большой вклад в развитие азербайджанского низамиведения, был профессор Халил Юсифли.

Профессор Халил Юсифли, наряду с фундаментальными монографиями о наследии и творчестве великого азербайджанского поэта и мыслителя Низами Гянджеви, вошел в историю азербайджанской литературы и как бесценный ученый, переложивший месневи великого мыслителя на прозу, в которой они были написаны.

В статье дается информация о жизни и творчестве заслуженного деятеля науки, профессора Халила Юсифли, а также направлениях его научных исследований.

***Alimukhtar MUKHTAROV***
***PhD in Philology, Associate Professor***

**SERVICES OF KHALIL YUSIFLI IN THE DEVELOPMENT OF AZERBAIJAN NIZAMI STUDIES**
***SUMMARY***

*Key words:* Nizami Ganjavi, Khalil Yusifli, Nizami Studies, development

The science of Nizami Studies in Azerbaijan has its own stages of development. If we compare it with world nizami studies, as noted by academician Isa Habibbeyli, the work done in Azerbaijan constitutes the heavy part of the scale. Among the distinguished scholars who significantly advanced Azerbaijani Nizami studies—an academic discipline over a century old—stands Professor Khalil Yusifli, whose contributions remain foundational to the field.

Professor Khalil Yusifli, along with fundamental monographs on the legacy and creativity of the great Azerbaijani poet and thinker Nizami Ganjavi, has also gone down in the history of Azerbaijani literature as an invaluable scholar who translated the great thinker's masnavis into the “aruz” verse in which they were written.

The article provides information about the life and creativity of Honored Scientist, Professor Khalil Yusifli, as well as his research directions.

***Daxil oldu: 01.06.2025-ci il***